**1. Xronoloji ardıcıllığı müəyyən edin:**
a. Quruçay mədəniyyətinin formalaşması
b. Boyalı qablar mədəniyyətinin formalaşması
c. Ovsun inamlarının formalaşması
A) a, c, b
B) b, a, c
C) c, b, a
D) a, b, c
E) c, a, b

**2. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Albaniyada yerli pulların kəsilməyə başlanması
2. Mənbələrdə ilk dəfə Manna tayfasının adının çəkilməsi
3. Azərbaycan torpaqlarının Midiya satraplığına daxil edilməsi
4. Azərbaycan torpaqlarında İskit padşahlığının yaranması

A) 3, 2, 1, 4;
B) 4, 1, 3, 2;
C) 2, 3, 4, 1;
D) 1, 3, 4, 2;
E) 2, 4, 3, 1;

**3. Yanlış fikri müəyyən edin:**
A) Albanların təsiri ilə yunanlar xristianlığı qəbul etdi
B) Şəhərlərin yaranmasında sənətkarlıq və ticarətin inkişafı mühüm rol oynamışdır
C) Ayniana şəhəri Qarabağda yerləşirdi
D) Strabon Albaniyada Anariaka şəhərinin olduğunu qeyd etmişdir
E) Alban dövləti yaranana qədər əhali əsasən, mal mübadiləsi ilə ticarət aparırdı

**4. Babək və Yusif ibn-Sac arasında oxşar cəhət:**
A) Ərdəbili paytaxta çevirmələri
B) Xilafətə qarşı mübarizə aparmaları
C) Şirvanşahlarla müttəfiq olmaları
D) Dərbənd səddini bərpa etdirmələri
E) Bəzz qalasını mərkəz etmələri

**5.**
**** Azərbaycanın qərb torpaqlarını qorumaq üçün mübarizə aparmışdır***
**** 1034-cü ildə hakimiyyətə gəlmişdir***
**Qeyd edilənlərin aid olduğu hökmdarı müəyyən edin:**
A) Əbulhica
B) Əbüləsvar Şavur
C) II Ləşkəri
D) Məhəmməd ibn Şəddad
E) Fəzl ibn Məhəmməd

**6. Uyğunluğu müəyyən edin:**
1. Xarəzmi
2. Biruni
3. Təbəri
a. Tarix ensiklopediyasını yaratmışdır
b. Xürrəmilər hərəkatı haqqında məlumat vermişdir
c. Yerin günəş ətrafında fırlanması fikrini irəli sürmüşdür
d. Cəbr elminin təməlini qoymuşdur
A) 1-d, 2-c, 3-a, b;
B) 1-b, 2-a, 3-c;
C) 1-d, 2-c, 3-b;
D) 1-c, 2-b, 3-a;
E) 1-a, 2-c,d, 3-b;

**7. Kulikovo və Terek çayı sahilindəki döyüşün oxşar nəticəsi:**
A) Qızıl Ordu qoşununa Toxtamış xanın başçılıq etməsi
B) Qızıl Ordu qoşununun qalib gəlməsi
C) Rus knyazlarının məğlub edilməsi
D) Qızıl Ordu qoşununun məğlub olması
E) Teymurilərin qalib gəlməsi

**8. Monqollar tərəfindən süquta uğradılan dövlətləri müəyyən edin:**
1. Eldənizlər
2. Xarəzmşahlar
3. Dehli
4. Ərəb xilafəti
A) 1, 2
B) 1, 4
C) 1, 3
D) 3, 4
E) 2, 4

**9. Frank dövlətinə aid *deyil*:**
A) Salik qanununun qəbul edilməsi
B) Erkən orta əsrlərdə yaranması
C) Xəzər xaqanlığına son qoyması
D) Ərəbləri məğlub etməsi
E) Qədim Roma imperiyası ilə mübarizə aparması

**10. Sasanilərin VII əsrin 50-ci illəri, Hülakülərin XIV əsrin 50-ci illəri tarixi üçün səciyyəvi idi:**
A) Verginin məhsulun miqdarına görə alınmağa başlanması
B) Ərəblərin hücumuna məruz qalması
C) Yeni dinin qəbul edilməsi
D) Müstəqilliklərinə son qoyulması
E) Slavyanların qarət və talanlarına məruz qalması

**11. Xəzər xaqanlığının zəifləməsinin səbəblərindəndir:**
A) Çin dövləti ilə aparılan müharibələr
B) Konstantinopola hücum zamanı məğlub olması
C) Monqolların Şərqi Avropaya yürüşləri
D) Ərəblərlə və peçeneqlərlə aparılan müharibələr
E) Dövlətin iki yerə parçalanması

**12. Bizans, erməni, gürcü qoşunlarını məğlub etmiş dövlətin ərazisini xəritə-sxemdə müəyyən edin:**




A) I
B) II
C) III
D) IV
E) V

**13. Cəlairilər dövlətinin mövcudluğu dövründə Azərbaycanda:**
A) Xidmət müqabilində tiyul torpaqlarının paylanması
B) Can vergisi, qopçur vergisinin toplanması
C) Bağdadda Abbasilər sülaləsinin hakimiyyətdə olması
D) Qaraqoyunluların öz hakimiyyətini Kür çayının şimalına yayması
E) Teymurilərin Azərbaycanda hakimiyyətinə son qoyulması

**14. XIV əsrin sonu XV əsrin əvvəllərində Ağqoyunlular:**
A) Şəməsi döyüşündə məğlub oldular.
B) Mərkəzi Diyarbəkir olan feodal hakimliyi yaratmışdılar.
C) Səfəvilərə qarşı Şirvanşahlarla müttəfiq oldular.
D) Qara dənizə birbaşa çıxışı itirmişdilər.
E) Azərbaycanın cənubunda dövlət yaratmışdılar.

**15. Gəncə xanı Cavad xanın fəaliyyətinə aiddir:**
1. Xanlıqda ikihakimiyyətliliyə son qoyması
2. Bir müddət Quba xanlığından asılılığı qəbul etməsi
3. Qazax və Borçalını azad etmək siyasəti yürütməsi
4. Quruqobu döyüşündə ruslara məğlub olması
A) 1, 2
B) 3, 4
C) 1, 4
D) 2, 3
E) 1, 3

**16. I Göytürk dövlətinin mübarizə apardığı dövlətlər:**

| | | |
|---|---|---|
| ***Çin*** | ? | ***Bizans*** |

A) Ağ Hun
B) Uyğur
C) Ərəb
D) Frank
E) Xəzər

**17. Təbrizdə "*Göy Məscid*" və Bakıda "*Şirvanşahlar sarayı*" üçün oxşarlıq:**
A) Monqolların yürüşü zamanı dağıdılmışlar.
B) İntibah dövrünə aiddirlər.
C) Eyni əsrdə inşa edilmişlər.
D) Müdafiə xarakterli memarlıq abidələridir.
E) XVI əsrə aiddirlər.

**18. Aşağıdakıların aid olduğu dövlətin ərazisini xəritədə müəyyən edin:**

– XVI əsrin əvvəlində Osmanlılar tərəfindən məğlub edilmişdir.

– XVI əsrin sonlarında ingilislər tərəfindən məğlub edilmişdir.




A) 1
B) 2
C) 3
D) 4
E) 5

**19. Manna hökmdarı Uallinin hakimiyyət dövrü üçün xarakterikdir:**

1. Hakimiyyətin irsən keçməsi
2. Assuriyanın hücumuna məruz qalması
3. E.ə. VII əsrin II yarısında hakimiyyətdə olması
4. Urartu ilə sazişin imzalanması

A) 1, 2
B) 1, 3
C) 1, 4
D) 2, 4
E) 2, 3

**20. Uyğunluğu müəyyən edin:**

1. Atropatena dövləti
2. Albaniya dövləti

a. III əsrin birinci yarısında Sasanilərdən asılı vəziyyətə düşmüşdü.
b. Kanidi tərəfindən Romadan asılı vəziyyətə salınmışdı.
c. Bir müddət Mehranilər sülaləsi tərəfindən idarə edilmişdi.
d. Urartu dövlətinin hücumuna məruz qalmışdı.
e. Qədim Roma imperiyasını Maqneziya döyüşündə məğlub etmişdi.

A) 1 – a; 2 – b, c;
B) 1– a, b; 2– e;
C) 1 – c; 2 – b, d;
D) 1 – d; 2 – a, b;
E) 1 – a, e; 2 – c, d;

**21. Naxçıvan xanlığı üçün səciyyəvidir:**

1. Zəndlərdən asılı olması
2. Quba xanlığının hücumuna məruz qalması
3. II Rus-Qacar müharibəsi dövründə ləğv edilməsi
4. Bir müddət Qarabağ xanlığından asılılığa düşməsi

A) 1, 2
B) 2, 3
C) 1, 4
D) 1, 3
E) 3, 4

**22. Səfəvilər və Teymurilər üçün oxşar cəhət:**

1. Eyni əsrdə süqut etmələri
2. Ağqoyunlularla mübarizə aparmaları
3. Şeybanilərlə mübarizə aparmaları
4. Osmanlılara məğlub olmaları
5. Dərbəndilər sülaləsini asılı vəziyyətə salmaları

A) 1, 3, 4
B) 3, 4, 5
C) 2, 3, 4
D) 1, 2, 5
E) 2, 3, 5

**23. Səfəvilər dövründə *qorçubaşı*:**

A) Şəhərlərdə asayişi qoruyurdu.
B) Vilayətləri idarə edirdi.
C) Şəhərləri idarə edirdi.
D) Çərik adlanan dəstəyə başçılıq edirdi.
E) Vəqf işləri və onun əmlakının idarə edilməsinə nəzarət edirdi.

**24. Feodal zülmünə qarşı yönəlmiş üsyanlar:**

1. Spartak
2. Məzdəkilər
3. Sarısarıqlılar
4. Uot Tayler

A) 2, 4
B) 1, 2
C) 2, 3
D) 1, 4
E) 3, 4

**25. Erməni işğalından xronoloji olaraq son azad olunmuş rayon mərkəzidir:**

A) Qubadlı
B) Ağdam
C) Füzuli
D) Laçın
E) Zəngilan